

AZƏRBAYCAN RESPUBLİKASI

# NAXÇIVAN TARİXİ ATLASI





AZƏRBAYCAN RESPUBLIKASI

63,3(2Az)
N 17



# NAXÇIVAN TARİXİ ATLASI

110134



M.S. Ordubadi adına
Naxçıvan Muxtar Resp... ...
KİTABXANASI

BAKI 2010

*"Naxçıvan qədim Azərbaycan torpağıdır, qədim tarixə və mədəniyyətinə malikdir"*

*İlham Əliyev*

Atlasın Məsləhətçisi
**VASİF TALIBOV**
Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri

## Elmi redaksiya heyəti:

İsmayıl Hacıyev - AMEA-nın həqiqi üzvü, tarix elmləri doktoru, professor; Hacı Qadir Qədirzadə-AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru; Vəli Baxşəliyev - AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru; Əli Həsənov - Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının rəhbəri, Dövlət qulluğunun 3-cü dərəcə müşaviri; Hacıfəxrəddin Səfərli - tarix elmləri doktoru, professor; Musa Quliyev - AMEA NB Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun elmi işçisi; Cəfər Əliyev - Naxçıvan Muxtar Respublikası Dövlət Yerquruluşu, Geodeziya və Xəritəçəkmə Layihə İnstitutunun direktoru; Xaliq Fərzəliyev - Naxçıvan Muxtar Respublikası Dövlət Yerquruluşu, Geodeziya və Xəritəçəkmə Layihə İnstitutunun Xəritəçəkmə şöbəsinin rəisi.


Nuh peyğəmbərin türbəsi

# MÜNDƏRİCAT


| | |
|---|---|
| 4 | Mündəricat |
| 6 | Şərti işarələr |
| 7 | Nuh yurdu Naxçıvan |
| 12 | Daş və Eneolit dövrü abidələri |
| 13 | Tunc və İlk Dəmir dövrü abidələri |
| 14 | Naxçıvanın orta Tunc dövrü mədəniyyəti və onun yayılma arealı |
| 15 | Dəmir və Antik dövr abidələri |
| 16 | Orta əsr abidələri |
| 17 | Azərbaycan və Ön Asiya ərazisində tayfalar, tayfa ittifaqları və dövlətlər (e.ə.III—II minilliklər) |
| 18 | Naxçıvan Atropatena və Sasanilər dövründə (IV—VII əsrlər) |
| 19 | Naxçıvan Xürrəmilər hərəkatı dövründə (VIII əsrin sonu—IX əsrin I yarısı) |
| 20 | Naxçıvan Azərbaycan feodal dövlətləri dövründə (IX—X əsrlər) |
| 21 | Naxçıvan Səlcuqlar dövründə (X əsrin sonu—XI əsrin I yarısı) |
| 22 | Naxçıvan Azərbaycan Atabəylər (Eldənizlər) dövləti (1136—1225-ci illər) |
| 23 | Naxçıvan XIII—XIV əsrlərdə |
| 24 | Naxçıvan XV əsrdə |
| 25 | Naxçıvan Qaraqoyunlular dövründə (1410—1468-ci illər) |
| 26 | Naxçıvan Ağqoyunlular dövründə (1468—1501-ci illər) |
| 27 | Naxçıvan Səfəvilər dövründə (1501—1736-cı illər) |
| 28 | Naxçıvan sancağının inzibati ərazisi (XVIII əsrin 20 —30-cu illəri) |
| 29 | Azərbaycan xanlıqları (XVIII əsrin II yarısı) |
| 30 | Naxçıvan xanlığı (1747—1828-ci illər) |
| 31 | Naxçıvan XIX əsrin II yarısı—XX əsrin əvvəllərində |
| 32 | Naxçıvan Azərbaycan Xalq Cümhuriyyəti dövründə (1918—1920-ci illər) |
| 33 | Naxçıvan Araz-Türk Respublikası (noyabr 1918 — mart 1919-cu illər) |





34 Naxçıvan Azərbaycana qarşı xarici-hərbi müdaxilə dövründə Azərbaycan SSR-in yaradılması (1918—1920-ci illər)
35 Şərur-Dərələyəz qəzası (1918—1920-ci illər)
36 Naxçıvan qəzası (1918—1920-ci illər)
37 Naxçıvanda ermənilərin törətdikləri soyqırımlar (1918—1921-ci illər)
38 Naxçıvan SSR (1920—1922-ci illər)
39 Naxçıvan MSSR (1924—1929-cu illər)
40 Naxçıvan Ölkəsi (1924-cü il)
42 Naxçıvan MSSR (1930—1991-ci illər)
43 Ermənistandan azərbaycanlıların deportasiyası və Naxçıvana erməni təcavüzü (1918 —1920, 1948—1953, 1988 —1993-cü illər)
44 Naxçıvan Muxtar Respublikasında qaçqınların və məcburi köçkünlərin yerləşdirilməsi
46 Naxçıvan Muxtar Respublikası (2009-cu il)
48 Naxçıvan şəhəri—Naxçıvan Muxtar Respublikasının paytaxtı
49 Epiqrafik abidələr
50 Babək rayonunun memarlıq abidələri
51 Culfa rayonunun memarlıq abidələri
52 Kəngərli rayonunun memarlıq abidələri
53 Ordubad rayonunun memarlıq abidələri
54 Sədərək və Şərur rayonlarının memarlıq abidələri
55 Şahbuz rayonunun memarlıq abidələri



Naxçıvan şəhəri. Heydər Əliyevin abidəsi

# ŞƏRTİ İŞARƏLƏR

## Müasir xəritələrdə

- NAXÇIVAN — Naxçıvan Muxtar Respublikasının paytaxtı
- CULFA — Rayon mərkəzləri
- Qarabağlar — Digər yaşayış məntəqələri
- Meşələr

## Tarixi xəritələr üçün

- AŞŞUR — Dövlətlər
- SAKASENA — Əyalətlər, vilayət və mahalların adları
- *KUTİLƏR* — Tayfalar və tayfa birlikləri, xalqlar
- Paytaxtlar. Quberniya mərkəzləri
- Vilayət, əyalət, tümənlərin, qeza və dairə mərkəzləri
- Mahal mərkəzləri
- Digər yaşayış məntəqələri
- Əlincə — Qalalar
- Naxçıvan ərazisinin coğrafi sərhədləri
- **NAXÇIVAN** — Coğrafi ərazi adları
- *Çaldıran* 1514 — Mühüm döyüş yerləri və illəri
- Məscid
- Dəmir yolları
- Yollar
- Karvan ticarət yolları
- Dövlətlərin sərhədləri
- Vilayət, əyalət, tümənlərin, qeza və dairə sərhədləri
- Göllər və su anbarları
- Çaylar
- *•1677* — Yüksəklik göstəriciləri
- Aşırımlar
- Körpülər


Naxçıvan şəhəri. Hüseyn Cavid məqbərəsi


Naxçıvan şəhəri. Üzgüçülük mərkəzi


Naxçıvan şəhəri. Dədə Qorqud meydanı

*"Tariximizin hər səhifəsi bizim üçün əzizdir"*

*Heydər Əliyev*

# NUH YURDU NAXÇIVAN

Tarix öz-özünə yaranmır. O, qüdrətli şəxsiyyətlərin, xalqların və millətlərin birgə yaradıcılığının məhsuludur. İkinci tərəfdən, hər bir xalqın tarixi onun dünya birliyində özünəməxsus yer tutması üçün milli kimlik pasportudur. Tarix mahiyyət etibarı ilə beynəlmiləl olduğu qədər də millidir. Milli olmayan tarix beynəlmiləl ola bilməz. Keçmiş Sovet tarix elmində məhz bu amil diqqətdən kənarda saxlanmış, digər xalqlar kimi Azərbaycan xalqının da tarixi hər cür təhriflərə məruz qalmış, faktiki olaraq xalqımız uzun müddət öz gerçək tarixinin sahibi ola bilməmişdir. Azərbaycan tarixinin bir hissəsini təşkil edən Naxçıvan tarixi də lazımi səviyyədə öyrənilməmiş, qədim tariximizə qərəzli münasibətlər göstərilmişdir.

Ölkəmiz müstəqillik qazandıqdan sonra milli dövlətçiliyimizin möhkəmləndirilməsi, ölkə iqtisadiyyatının dirçəldilməsi sahəsində görülən işlərlə yanaşı Azərbaycan tarixinin keçmiş Sovetlər Birliyinə xas olan ideoloji baxışlardan təmizlənməsi, xalqımızın tarixinin, dilinin, ədəbiyyatının, arxeologiya və etnoqrafiyasının, folklorunun və adət-ənənələrinin, milli dəyərlər sisteminin, geniş mənada xalq yaradıcılığının elmi dəlil və konkret faktlar əsasında yenidən araşdırılması sahəsində əsaslı tədbirlər görüldü. Bu tədbirlərin kökündə ulu öndər Heydər Əliyevin rəhbər göstərişləri, tapşırıq və tövsiyələri dayanırdı. Qısa zaman ərzində mühüm elmi nailiyyətlər qazanıldı. Azərbaycançılıq məfkurəsi formalaşdı. Xalqımızın qədim tarixinə, etnogenezisinə dair sanballı elmi tədqiqat materialları, xəritələr toplusu hazırlandı.

Ümummilli liderimizin Azərbaycan tarixşünaslığına verdiyi mühüm töhfələrdən biri də regionların tarixinin öyrənilməsidir. Çünki bu olmadan, bütövlükdə Azərbaycan tarixindən danışmaq mümkün deyil. Məhz belə bir yanaşmanın, konseptual baxışın nəticəsidir ki, Naxçıvan tarixinin öyrənilməsi sahəsində də əhəmiyyətli dönüşə nail olunmuşdur.

Lakin bütün bunlar qəti fikir söyləməyə əsas vermir ki, qarşıda dayanan vəzifələr tamamilə həll olunmuşdur. Naxçıvanın qədim tarixinə dair bir sıra məsələlər hələ də tam araşdırılmamışdır. Öyrənilməsinə, tədqiq olunmasına ciddi ehtiyac duyulan bir çox məsələlər qalmaqdadır. Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan bölməsinin yaradılması münasibəti ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən müşavirədə ümummilli lider Heydər Əliyev demişdir: *"Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan bölməsinin*

*yaradılması haqqında Sərəncam imzalamışam... Mən bununla Naxçıvan Muxtar Respublikasının indiyə qədər çox az öyrənilmiş qədim tarixinin, mədəniyyətinin, elminin, ədəbiyyatının yenidən dərindən araşdırılması və onlar haqqında elmi əsərlərin, populyar kitabların, yaxud başqa nəşrlərin hazırlanması məqsədi daşıyıram. Eyni zamanda Naxçıvanın özünəməxsus təbiəti, təbii sərvətləri, torpağı, təbii abidələri də təəssüf olsun ki, indiyə qədər lazımi dərəcədə öyrənilməyib. Bunlara, mənim irəli sürdüyüm məsələlərin öyrənilməsinə böyük ehtiyac var".*

Hal-hazırda bu ehtiyac nəzərə alınaraq elmi-tədqiqat müəssisələrinin fəaliyyəti gücləndirilir. Ölkə Prezidenti cənab İlham Əliyev Azərbaycanın siyasi, iqtisadi və milli dövlətçilik tarixində mühüm yer tutan Naxçıvan tarixinin ardıcıl öyrənilməsi, "bu olduqca mühüm və səmərəli işin davam etdirilməsi" zərurətindən danışaraq demişdir: *"Ermənistanın apardığı təcavüzkarlıq siyasəti nəticəsində Azərbaycandan qismən təcrid olunmuş vəziyyətdə, blokada şəraitində yaşamaq məcburiyyətində qalan, tez-tez bədnam qonşuların ərazi iddiaları obyektinə çevrilən Naxçıvanın tarixinin hələ də tədqiq edilməyə ehtiyacı olan səhifələri açılmalı, Azərbaycanın qədim və zəngin tarixə, mədəniyyətə və çoxəsrlik dövlətçilik ənənələrinə malik olan bu diyarının tam dolğun, obyektiv tarixi xalqımıza, habelə dünya ictimaiyyətinə olduğu kimi çatdırılmalı, erməni siyasətçilərinin tarixi saxtalaşdırmaq cəhdlərinə tutarlı cavab verilməlidir".*

Naxçıvan qədim tarixə malikdir. Milli sərvətlərimiz olan abidələrlə zəngin bir diyardır. Tale bu torpaqdan öz səxavətini əsirgəməyib. Bu yurdun ən böyük sərvəti isə şübhəsiz ki, onun dünyaya bəxş etdiyi böyük tarixi şəxsiyyət, bəşəriyyətin ikinci atası sayılan həzrəti Nuh peyğəmbərin də vətəni olmasıdır.

Qeyd etmək lazımdır ki,qədim dövrlərdə və orta əsrlərdə Naxçıvanın tarixindən bəhs edən tədqiqatçılar, alim və səyyahlar Nuh peyğəmbər və Naxçıvan bağlılığından danışsalar da bu məsələ ilə bağlı yazılı mənbələr qoyub getsələr də Sovetlər Birliyi dövründə "Nuh-Naxçıvan" mövzusu qadağan olunmuş, elmi ədəbiyyatlarda işlədilməsinə icazə verilməmişdir. Hətta iş o yerə çatmışdır ki, Naxçıvanda nəşr olunan "Sovet Naxçıvanı" qəzetinin 30 yanvar 1986-cı il tarixli nömrəsində Nuhun gəmisinin Naxçıvan ərazisindəki Gəmiqayada quruya çıxması, buradakı runik yazılarda gəmi təsvirinin verilməsi barədə fikirləri, bütövlükdə Nuh peyğəmbər və Naxçıvan əlaqələrinə dair elmi təhlilləri özündə əks etdirən "Xalqımızın mənlik heykəli" adlı yazının dərc edilməsi mərkəzi hakimiyyət tərəfindən ciddi etirazla qarşılanmış, partiya orqanlarının büro və plenum iclaslarında sərt tənqid olunmuş, "Nuh əyyamı" dövrünün əfsanəvi sujetini milli iftixar mövzusu kimi qələmə verdiyinə görə qəzetin rəhbərliyi cəzalandırılmışdır.

Göründüyü kimi, Sovet tarixşünaslığı Nuh peyğəmbər və Naxçıvan bağlılığını qətiyyətlə təkzib etməyə çalışmış, o dövrün elmi ədəbiyyatlarında, hətta Azərbaycan müstəqillik qazandıqdan sonra nəşr olunan bir sıra tədqiqat materiallarında da "Naxçıvan" sözünün mənşəyi barədə ziddiyyətli fikirlər irəli sürülmüşdür. Bəzi tarixçilər yunan mənbələrinə istinad edərək "Naxçıvan" sözü-

nün *Naksuana* kimi yazılmasından, digərləri isə qədim ərəb mətnlərində *Nəşəva* kimi işlədilməsindən istifadə edərək Naxçıvan ifadəsində yad elementlər axtarmağa cəhd göstərmişlər. Bu sözü elamların allahı ilə əlaqələndirənlər, qədim tayfa adından yarana biləcəyini fərz edənlər də vardır. Bir sıra alimlər isə Naxçıvanı "Nəqşi-Cahan", yəni dünyanın bəzəyi kimi başa düşmüşlər. Mülahizələrin çoxluğuna baxmayaraq elmi fikir, əsasən, yad mənbələr üzərində köklənmiş, yalnız az sayda tədqiqatçılar Naxçıvan sözünün Nuh peyğəmbərlə bağlılığını əsaslandırmağa çalışmışlar. Bu söz məhz "Nuh" ifadəsi ilə bağlıdır və Naxçıvan — Nuhçuların, Nuh tərəfdarlarının məskəni deməkdir.

Naxçıvan o yerdir ki, burada Nuh peyğəmbərin, yaxın qohumlarının və tərəfdarlarının məzarları mövcuddur. Araşdırmalar göstərir ki, "ümumdünya tufanı" və Nuhla əlaqədar rəvayətlər daha çox Naxçıvanla bağlı olmuşdur. Qədim yunan alimi Klavdi Ptolomey bizim eranın II əsrində ilk dəfə olaraq Naxçıvanı Nuh peyğəmbərin məskəni kimi xatırlatmış, XVI əsrin görkəmli ərəb alimi, coğrafiyaşünas əl-Şərifi, nəinki Nuh peyğəmbərin qəbrinin, hətta gəmisinin də qalıqlarının Naxçıvanda olması barədə ətraflı məlumat vermişdir. Eramızdan əvvəl I əsrdə yaşamış yəhudi alimi İosif Flavi Naxçıvan torpağını Nuhun gəmisinin dayandığı ilk ərazi hesab etmişdir. Rus tədqiqatçısı Smirnov Nuhun qəbrinin Naxçıvanda olduğunu söyləmiş, hətta onun dəqiq yerini də göstərmişdir. Azərbaycan rəssamı Bəhruz Kəngərli ötən əsrin 20-ci illərində Nuh peyğəmbərin Naxçıvandakı türbəsinin rəsmini 6 dəfə naturadan kətan üzərinə köçürmüşdür. Həmin nadir əsərlər Naxçıvandakı Bəhruz Kəngərli muzeyində mühafizə və nümayiş etdirilir.

Qeyd olunanlar bir daha göstərir ki, Nuh peyğəmbər Naxçıvanda yaşamış, burada vəfat etmiş, onun məzarı bütöv bir panteon olmuş, minlərlə insanın ziyarətgahına çevrilmişdir.

Dünya xəritəsinə nəzər salsaq, heç bir yerdə Azərbaycanın Naxçıvan Muxtar Respublikasında olduğu qədər Nuh peyğəmbərlə bağlı yer adlarına rast gəlmək mümkün deyil. Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunda olan və bizim eradan əvvəl VI minilliyə aid olan Gəmiqaya təsvirləri, Nəbi yurdu, Naxçıvan, Nehrəm, Nəhəcir, Nuhdaban, Nuhgədik, Peyğəmbərayağı, Haça dağ kimi yer adlarının, yaşayış məskənlərinin mövcudluğu Nuh peyğəmbərin bu torpaqda yaşamasının daha bir əyani sübutudur.

Burada haqlı sual doğur: Nuh peyğəmbər və tərəfdarları nə üçün məhz Naxçıvanı seçmişlər? Bu fikrin ən sadə izahı bu günkü Naxçıvanın relyefi, yerüstü təbii sərvətləri, coğrafi mövqeyidir. Arazboyu və dağətəyi zonada əkinçiliyin və sənətkarlığın, dağlıq ərazidə heyvandarlığın inkişafı üçün yaranmış əlverişli şərait, mövcud 11 iqlim tipindən 9-nun Naxçıvanda olması Daş dövründən başlayaraq insanların burada məskunlaşması ilə nəticələnmişdir. Eramızdan əvvəl IV minilliyə aid Kültəpə, Qazma, Kilid, Oğlanqala, Govurqala, Daşqala mağara-yaşayış yerləri Naxçıvanın qədim sivilizasiyanın əhəmiyyətli mərkəzlərindən biri kimi formalaşmasının canlı nümunəsidir. Burada aparılan arxeoloji qazıntılar nəticəsində aşkarlanmış Daş və Metal dövrlərinin abidələri,

Nuh peyğəmbərlə bağlı olan Gəmiqaya təsvirləri, mükəmməl sənətkarlıq nümunələri kimi diqqəti cəlb edən boyalı qablar texnologiyası, xalq sənətkarlığının inkişaf etmiş və dövrümüzə qədər gəlib çatmış digər sahələri Naxçıvanın ilkin şəhər mədəniyyətindən xəbər verir. Azərbaycanda Eneolit, Kür-Araz və boyalı qablar mədəniyyətinin əsas ocaqları Naxçıvandadır. Bu bir daha sübut edir ki, minilliklər boyu Naxçıvan ərazisində ardıcıl və intensiv məskunlaşmış insanların iqtisadi, ictimai və mədəni həyatında ciddi dəyişikliklər baş vermiş, iri tayfa ittifaqları meydana gəlmiş, Naxçıvan şəhəri yaranmışdır.

Qeyd etmək lazımdır ki, müxtəlif dövrlərdə Naxçıvan şəhərinin yaranması barədə də Azərbaycan tarixşünaslığında ziddiyyətli, heç bir elmi əsası olmayan fikirlər irəli sürülmüşdür. Bir sıra tədqiqatçılar Naxçıvanın 2 min, bəziləri 3 min 500 yaşı olduğunu iddia etmiş, lakin yekun elmi nəticəyə gələ bilməmişlər. Səbəb nə idi? Səbəb o idi ki, Naxçıvan şəhərinin yaşı ilə bağlı araşdırmalar lazım olan yerdə aparılmamış, Naxçıvan şəhərinin Nuh peyğəmbərlə bağlılığı elmi tədqiqatlardan kənarda qalmışdır. Yadda saxlamaq lazımdır ki, indiki Naxçıvan şəhəri qədim və orta əsrlər mədəniyyətinin üzərində yerləşir. Deməli, elmi fikir yenidən Naxçıvan məsələsinə qayıtmalı, tədqiqatlar bu ərazidə aparılmalı, Naxçıvan şəhərinin indiki ərazisini əhatə etməlidir.

Rus tədqiqatçısı Nikitinin 1882-ci ildə Tiflisdə nəşr olunan "Qafqaz ölkəsi və tayfalarının təsviri üçün materiallar" məcmuəsində nəşr olunan "Naxçıvan mahalı və Naxçıvan şəhəri" adlı irihəcmli məqaləsində yazır: "Tufandan sonra... Nuh hazırda Naxçıvan şəhərinin yerləşdiyi yerdə məskən saldı. O, öz ailəsi ilə burada qərar tutdu və gələcək şəhərin əsasını qoydu. Şəhərin ilk məskunlaşma yeri mənasını bildirən adı da buradan meydana gəlmişdir".

Həmin məqalədə eyni zamanda qeyd olunur ki, Nuh peyğəmbər şəhər əhalisinə duz çıxartmağı öyrətmiş, özü də yaxınlıqdakı duz mədənində ilk çalışanlardan olmuşdur. Nuh peyğəmbərlə bağlı Naxçıvan ərazisində yayılmış digər rəvayətlər kimi, bu fikir də özünün elmi təsdiqini tapmış, XIX əsrin axırlarında Naxçıvan duz mədənində nəzarətçi işləyən Beyer duz şaxtasında qədim baltalar aşkar etmişdir. O, həmin baltalardan ikisini Naxçıvan şəhər məktəbinə bağışlamış, qalanlarını isə Peterburq və Tiflis muzeylərinə göndərmişdir. Bu, bir tərəfdən Naxçıvanda duzçıxarma mədəniyyətinin 5 min ildən artıq bir dövrü əhatə etdiyini göstərirsə, digər tərəfdən Naxçıvan şəhərinin yaş məsələsini yenidən elmi fikrin müzakirəsinə çevirir.

Naxçıvan yaxınlığındakı Duzdağın və ona bitişik ərazilərin Naxçıvan şəhər mədəniyyətinin formalaşmasında mühüm rolu olmuşdur. Həmin ərazidən aşkar olunmuş arxeoloji nümunələrə əsaslanaraq demək mümkündür ki, yerli əhali Eneolit dövründə buradan geniş istifadə etmişdir. Təbii ki, çıxarılmış duz ancaq yerli tələbatı ödəməmiş, digər yerlərə də aparılmış, bu yolla ticarət inkişaf etmişdir. İkinci tərəfdən, bu ərazi insanların məskunlaşması üçün də əlverişli yer olmuşdur. Arazboyu və Duzdağ ətrafı düzənliklərdəki torpaqlar, sututarlar əhalinin tədricən oturaq həyata keçməsi ilə nəticələnmiş, əkinçilik, zəngin təbii imkanlardan istifadə etməklə isə sənətkarlıq formalaşmış, dulusçuluq,

sonrakı dövrlərdə metal istehsalı və xalq sənətkarlığının digər sahələri inkişaf etmişdir. Bütün bunlar isə erkən şəhər mədəniyyətinin yaranmasına öz təsirini göstərmişdir.

Tarixi mənbələrdə dünya tufanının ən azı 7 min 500 il bundan əvvəl baş verdiyi qeyd olunur. Deməli, Naxçıvan bu dövrdən etibarən yaşayış məskəni kimi seçilmiş, əlverişli təbii-coğrafi şərait burada əkinçilik, maldarlıq, sənətkarlığın müxtəlif sahələrinin inkişafına səbəb olmuş, ticarət əlaqələri yaranmışdır. Göstərilən şərtlər erkən şəhər mədəniyyətinin formalaşmasında əsas amillərdən hesab edildiyindən Naxçıvan şəhərinin 5 min il bundan əvvəl yarandığını söyləmək mümkündür.

Dünya tufanının ilk yazılı variantı olan və eramızdan əvvəl IV minilliyin ortalarına aid edilən Şumer əfsanəsi ilə Naxçıvan arasında bağlılıq da bu qədim şəhərin 5 min ildən artıq yaşı olduğunu göstərməkdədir. Bu bağlılığın da tarixi kökü vardır. Belə ki, Naxçıvan mədəniyyəti Mesopotamiya, Babil, Xett və digər bu kimi antik mədəniyyət mərkəzləri ilə sıx əlaqələr şəraitində inkişaf etmiş, özünəməxsus formalaşma mərhələsi keçmişdir.

Qeyd olunanların yekunu kimi əminliklə göstərmək mümkündür ki, Nuh peyğəmbər və dünya tufanı qədim Naxçıvanla bağlı olmuşdur. Bu, Azərbaycanda Nuh peyğəmbər və Naxçıvan mövzusunda aparılan elmi araşdırmaların gəldiyi ən düzgün və məntiqi nəticədir. Müasir Nuhşünasların fikrincə, dünyada yerin və göyün qovuşduğu, Allahın bərəkətli torpaq kimi nişan verdiyi yer Naxçıvandır. Belə olmasaydı, dünya tarixinə Nuh möhürü Naxçıvanda vurulmazdı.

Bu gün "Nuh peyğəmbər, dünya tufanı və Naxçıvan" mövzusu regional yox, qlobal, bəşəri məsələdir. Biz Nuh peyğəmbər və Naxçıvan bağlılığını tədqiq etməklə, öyrənməklə Naxçıvan tarixinin araşdırılmasında yol verilmiş nöqsanları aradan qaldırır, bu yurdun gerçək tarixini yaratmağa çalışır, bununla da Azərbaycan tarixini zənginləşdirir və dünya tarixinə layiqli töhfə vermiş oluruq.

*Vasif Talıbov*
*Naxçıvan Muxtar Respublikası*
*Ali Məclisinin Sədri*

# DAŞ VƏ ENEOLİT DÖVRÜ ABİDƏLƏRİ

Miqyas 1: 750 000






Ovçular təpəsi

- Paleolit
- Eneolit
- Neolit
- Yaşayış yerləri



Qazma mağarası

Naxçıvan ərazisində aparılan arxeoloji qazıntılar, burada hələ qədim Daş dövründən insanların yaşadıqlarını sübut edir.

O dövrdə insanlar çay vadisi və düzənliklərdə qrup halında yaşayırdılar. Onlar ağacların meyvəsini toplayır, heyvan ovlayır və balıq tuturdular.

# TUNC VƏ İLK DƏMİR DÖVRÜ ABİDƏLƏRİ

Miqyas 1: 750 000




Qədim qəbirlər | Yaşayış yerləri | Qayaüstü təsvirlər | Mədən yerləri


Maxta Kültəpəsi



Bir neçə qəbilənin birləşməsi nəticəsində qəbilə icması yarandı. Onlar əmək fəaliyyətlərində və təsərrüfat işlərində metal alətlərdən istifadə etməyə başladılar.

Qazıntılar nəticəsində qədim insan məskənlərində misdən hazırlanmış ox, biz, bəzək əşyaları, qırmızı və boz rəngdə cilalanmış qablar aşkar olunmuşdur. Sonralar misi tunc və dəmir əvəz etdi. Bunlardan əmək alətləri və silah hazırlayırdılar.

# NAXÇIVANIN ORTA TUNC DÖVRÜ MƏDƏNİYYƏTİ VƏ ONUN YAYILMA AREALI






Boyalı qab

- Yaşayış yerləri
- Nekropollar
- Naxçıvan mədəniyyətinin mərkəzi
- Naxçıvana məxsus mədəniyyətin yayıldığı ərazi



Boyalı qab

# DƏMİR VƏ ANTİK DÖVR ABİDƏLƏRİ

Miqyas 1: 750 000




Qədim qəbirlər

Qayaüstü təsvirlər

Yaşayış yerləri



Ordubad rayonu. Muncuqlutəpə

# ORTA ƏSR ABİDƏLƏRİ

Miqyas 1: 750 000




- Türbələr
- Mədrəsə
- Məscidlər
- Yaşayış yerləri
- Qalalar
- Qeysəriyyə
- Karvansaraylar
- Buzxana
- Hamam
- Körpülər
- Köhnə şəhərlər



Naxçıvan şəhəri. Köhnə qala, orta əsr



Culfa r-nu, Xanəgah kəndi. Əlincə qalası, V-VII əsrlər

# AZƏRBAYCAN VƏ ÖN ASİYA ƏRAZİSİNDƏ TAYFALAR, TAYFA İTTİFAQLARI VƏ DÖVLƏTLƏR

(e.ə.III—II minilliklər)








Tarixi inkişafın ayrı-ayrı dövrlərində Yaxın Şərq,xüsusilə Mesopotamiya tarixində hurrilər, kutilər, lullubilər və kaşşurlar mühüm rol oynamışlar.

Yaxın Şərq ərazisində tarixdə məlum olan ən qədim xalqlardan biri olan şumerlər IVminilliyin axırlarında mixi yazısını kəşf etmişlər. Sonralar həmin ərazilərə gəlmiş Samidilli tayfalar Mesopotamiyada Akkad dövlətini, daha sonralar isə Babil və Aşşur dövlətlərini yaratmışlar. Şumer-Akkad mixi yazısı Yaxın Şərqin başqa ölkələrinə də yayılmışdır. Mixi yazılı mənbələr və arxeoloji qazıntılar zamanı əldə edilmiş materiallar əsasında o dövrün siyasi və mədəni tarixi dolğun şəkildə öyrənilmişdir.

M.S.Ordubadi adına
Naxçıvan Muxtar ...
KİTABXANA

# NAXÇIVAN ATROPATENA VƏ SASANİLƏR DÖVRÜNDƏ (IV—VII əsrlər)



# NAXÇIVAN XÜRRƏMİLƏR HƏRƏKATI DÖVRÜNDƏ
## ( VIII əsrin sonu—IX əsrin I yarısı )




Babəkin abidəsi

| | |
|---|---|
| 827 | Xürrəmilərin ərəblərlə döyüş yerləri və illəri |
| ⁎ | Babəkin son döyüş yeri |
| ◎ BƏZZ | Xürrəmilərin istinadgahı |
| | Xürrəmilər hərəkatının başlandığı ilkin ərazilər |
| | Xürrəmilər hərəkatının yayıldığı ərazilər |

VII əsrin ortalarında ərəb qoşunları Azərbaycana hücum etdilər. 90 ilə yaxın davam edən amansız vuruşmalar nəticəsində ərəblər Azərbaycanı çətinliklə özlərinə tabe edə bildilər. 654-cü ildə ərəblər Naxçıvanı tutdular. Ərəb əmiri Həbib ibn Məsləmə ilə bağlanmış müqaviləyə görə Naxçıvan əhalisi Xilafətə hər il cizyə və xərac verməyi öhdəsinə aldı. Naxçıvan şəhəri Xilafətin Azərbaycanda hərbi-inzibati mərkəzi və ərəb əmirlərinin əsas iqamətgahı idi. IX əsrdə Xilafət əleyhinə yüksələn Xürrəmilər hərəkatı Naxçıvan ərazisini də əhatə etmişdi.

# NAXÇIVAN AZƏRBAYCAN FEODAL DÖVLƏTLƏRİ DÖVRÜNDƏ (IX — X əsrlər)




Naxçıvan. Əlincə qalası, V-VII əsrlər

Ərəb xilafəti daxilində gedən parçalanma prosesi tarixi Azərbaycan ərazisində yeni dövlət qurumlarının yaranmasında mühüm rol oynadı. Azərbaycan ərəb işğalçılarının əsarətindən azad oldu. Lakin ölkədaxili feodal parçalanması yadelli işğalçılara qarşı müqaviməti zəifləndirdi, iqtisadi inkişafa mənfi təsir göstərirdi.

# NAXÇIVAN SƏLCUQLAR DÖVRÜNDƏ
## (X əsrin sonu—XI əsrin I yarısı)




Naxçıvan şəhəri. Yusif Küseyir oğlu türbəsi, XII əsr.

Naxçıvanşahlıq X əsrin 80-ci illərindən XI əsrin 60-cı illərinədək Şəddadilər dövlətinin tərkibində olmuş əmirlik idi. Əmirlik Əbu Düləfilər tərəfindən idarə edilmişdir. Bəzi mənbələrdə Naxçıvanşahlıq müstəqil dövlət kimi göstərilir. Naxçıvanşahlıq Sultan Alp Arslanın dövründə Səlcuq dövlətinə tabe edilmişdir (1066-cı il).

# NAXÇIVAN AZƏRBAYCAN ATABƏYLƏR (ELDƏNİZLƏR) DÖVLƏTİ(1136 —1225-ci illər)




Naxçıvan şəhəri. Möminə xatın türbəsi, 1186-1187-ci illər



Səlcuq imperiyasının tənəzzülü dövründə hakimiyyət uğrunda davam edən çəkişmələr nəticəsində yeni dövlət qurumlarının-atabəyliklərin təşkili üçün zəmin yarandı.1136-cı ildə Azərbaycan Eldənizlər dövləti meydana gəldi.Naxçıvan şəhəri 1136-1175-ci illərdə Azərbaycan Atabəylər dövlətinin paytaxtı olmuşdur. Bu dövrdə təsərrüfatın inkişafı üçün əlverişli şərait mövcud idi: metal əridilir, sənətkarlıq inkişaf edir, yeni şəhərlər salınırdı.

Atabəylər dövlətinin idarə edilməsi məqsədilə ali idarə (divanəl-alə) yaradıldı. Bu dövlətin nəzdində dövlət dəftərxanası, maliyyə idarəsi və ya xəzinədarlıq var idi. Eldənizlər dövründə Azərbaycan mədəniyyəti yüksək inkişaf səviyyəsinə çatdı.

# NAXÇIVAN XIII—XIV əsrlərdə






Naxçıvan.
Qarabağlar türbəsi, XII-XIVəsrlər

XIII-XIV əsrlərdə Azərbaycan Hülakülər və Cəlairilər dövlətlərinin mərkəzi vilayəti olmaqla, inzibati-ərazi bölgüsü baxımından əsas 4 əyalətə—Azərbaycan, Arran,Şirvan və Muğan əyalətlərinə ayrılırdı. Azərbaycan əyalətinin (tarixi Atropatena ərazisi) özü də 9 tümənə bölünmüşdür. Naxçıvan Araz çayının hər iki sahilindəki ərazilərə malik olsa da "tümən" statusu ilə Azərbaycan əyalətinə daxil idi və müasir dövrə nisbətən çox geniş əraziləri əhatə edirdi. Naxçıvan tüməni Makudan Qafan dağlarına kimi olan ərazini əhatə edirdi və Xoy, Mərənd, Mişkin tümənləri və Qarabağ mahalı ilə hüdudlanırdı. Həmdullah Qəzvini (XIV əsr) Makunu Naxçıvan tüməninə daxil olan 5 şəhərdən biri kimi tanıdır (Naxçıvan, Ordubad, Azad, Əncan və Maku) və onun qaya yarğanında yerləşən qala olduğunu bildirir. Fəzlullah Rəşidəddin (1247-1318) isə Qafanın Naxçıvan tüməninə aid olduğunu yazırdı. Onun kənd təsərrüfatına həsr olunmuş "Asar və əhya" ("Təsir və dirçəliş") əsərində qeyd olunan "zoğal Naxçıvana aid olan Qafanın bəzi yerlərində bitir", ərvağan çiçəyi "Naxçıvan vilayətində olan Qafan dağlarında çox bitir" kimi faktları Qafan ərazisinin inzibati-ərazi baxımından Naxçıvan tüməninə daxil olduğunu göstərir.

# NAXÇIVAN XV əsrdə




XV əsrin başlanğıcı Azərbaycanın yadelli əsarətindən azad edilməsi və qədim dövlətçiliyin bərpa edilməsi dövrüdür. Bu dövrdə Kür çayından şimalda Şirvanşahlar dövləti və Şəki hakimliyi mövcud idi.1408-ci ildə Qara Yusif tərəfindən Azərbaycanda Teymuri ağalığına son qoyuldu və 1410-cu ildə Cəlairi Sultan Əhməd üzərində qələbədən sonra mərkəzi Təbriz şəhəri olan Azərbaycan Qaraqoyunlu dövləti yarandı. Bu dövlətə Kürdən cənubdakı Azərbaycan torpaqları, Şərqi Anadolu, Ərəb İraqı və Əcəm İraqı daxil oldu. 1468-ci ildə onu Ağqoyunlu dövləti əvəz etdi. Bu dövlətin sərhədləri şərqdə Xorasana kimi uzanırdı. XV əsrdə Ərdəbil,Lənkəran və Qaracadağ bölgələrində Səfəvilərin Ərdəbil hakimliyi mövcud olmuşdur.

# NAXÇIVAN QARAQOYUNLULAR DÖVRÜNDƏ
## (1410—1468-ci illər)




Mənşəcə oğuzların Yivə boyundan olan Qaraqoyunlular Yaxın və Orta Şərqin tarixində mühüm rol oynamışdır.Tarixi mənbələr VII əsrdən etibarən onların Azərbaycanda yaşaması haqqında məlumatlar verir. Monqol yürüşləri zamanı Şərqi Anadoluya çəkilən bu tayfalar XIV əsrin II yarısında Elxanilər dövlətinin süqutundan sonra Bayram Xocanın rəhbərliyi altında mərkəzi Ərciş və Van şəhərləri olan güclü tayfa birliyi yaratmışlar. XIV əsrin sonunda dövrün siyasi hadisələrinə qatılan Qaraqoyunlular Sürməli, Xoy və Naxçıvan bölgələrində möhkəmlənərək Qara Yusifin başçılığı altında bir neçə dəfəTəbrizi ələ keçirmişlər. Əmir Teymurun yürüşləri zamanı Cəlairi Sultan Əhmədlə birlikdə ciddi müqavimət göstərən Qara Yusif öncə Osmanlı sultanına, sonra isə Misir sultanına sığınmaq məcburiyyətində qalmışdır. 1405-ci ildə Əmir Teymurun ölümündən sonra Azərbaycanda onun varisləri arasında başlanan mübarizədən istifadə edən Qara Yusif 1406-cı ilin oktyabrında Teymuri Əbu Bəkri Naxçıvan yaxınlığında, 1408-ci ilin aprelində isə Təbriz yaxınlığında Sərdrud döyüşündə məğlub edərək, Teymurilərin Azərbaycandakı ağalığına son qoymuşdur. Qara Yusif 1410-cu ilin avqustunda Təbriz yaxınlığında Cəlairi Sultan Əhmədi məğlub edərək Cəlairilər dövlətinə son qoymuş və mərkəzi Təbriz olan Azərbaycan Qaraqoyunlu dövlətini yaratmışdır. Qaraqoyunlu dövlətinə Kürdən cənuba Azərbaycan torpaqları, Şərqi Anadolu, Ərəb İraqı və Əcəm İraqı daxil olmuşdur. Cahanşahın dövründə (1436-1467) 1453-1458-ci illərdə Əcəm İraqına, Mazandaran və Xorasana yürüşlər nəticəsində dövlətin şərq sərhədləri Xorasana kimi genişləndirilmişdir.1458-ci ildə Herat tutulsa da Teymuri Əbu Səidlə bağlanan müqaviləyə görə Qaraqoyunlular Heratı tərk etmişdilər.

Cahanşah 1467-ci ilin noyabrında Ağqoyunlular üzərinə yürüş zamanı Muş yaxınlığında Sәncək adlı yerdə Uzun Həsənin hücumuna məruz qalmış və öldürülmüşdür. Uzun Həsən 1468-ci ildə Cahanşahın oğlu Həsən Əli üzərində qələbədən sonra Qaraqoyunlu dövlətinə son qoymuşdur.

# NAXÇIVAN AĞQOYUNLULAR DÖVRÜNDƏ (1468—1501-ci illər)




Xalqımızın tarixində mühüm rol oynamış Ağqoyunlular Oğuzların Bayandır boyundandır. Ağqoyunlu tayfaları hələ VI-VII əsrlərdən Azərbaycanın Araz çayı ilə Göyçə gölü ətrafında, Alagöz yaylaqlarında yaşayırdılar. Monqol yürüşləri zamanı Şərqi Anadoluya çəkilən Ağqoyunlular XIV əsrin ortalarında Elxanilər dövlətinin süqutundan sonra Əlaəddin Turəli bəyin rəhbərliyi altında güclü tayfa birliyində birləşmiş və dövrün siyasi hadisələrinə qatılmışlar. XIV əsrin sonunda tayfa birliyinin möhkəmlənməsində Qara Yuluq Osmanın (1394-1434-cü illər) mühüm xidməti olmuşdur. Bu zaman Diyarbəkr şəhəri bu tayfa birliyinin mərkəzi olmuşdur. Uzun Həsən 1453-cü ildə tayfa birliyinin rəhbəri olduqdan sonra onun mövqeyi daha da güclənmiş və Şərqi Anadoluda Qaraqoyunlulara məxsus şəhər və qalaların bir hissəsi onların ixtiyarına keçmişdir. Uzun Həsən Trabzon yunan dövlətilə sıx əlaqələr saxlamışdır.1461-ci ildə Sultan II Mehmetin yürüşü zamanı anası Sara xatını onunla danışıqlara göndərərək bu hücumun qarşısını almağa çalışmışdır. Yassıçəmən sülhünün bağlanmasına baxmayaraq Trabzonu xilas etmək mümkün olmamışdır.

Uzun Həsən 1467-ci ildə Cahanşah, növbəti ildə isə onun oğlu Həsən Əli üzərində qələbədən sonra mərkəzi Təbriz şəhəri olan Ağqoyunlu dövlətini yaratdı. Bu dövlətin ərazisinə qərbdə Fərat çayından, şərqdə Xorasana kimi, şimalda Kür çayından, cənubda İran körfəzinə kimi olan torpaqlar daxil edildi. Uzun Həsən 1477-ci ildə VI Baqrat üzərində qələbədən sonra Tiflis daxil olmaqla Şərqi Gürcüstanı da Ağqoyunlu dövlətinə birləşdirdi.

Lakin Trabzonun itirilməsi Ağqoyunluları Qara dənizə çıxışdan məhrum etmişdir. Qaraman uğrunda rəqabət Ağqoyunlu-Osmanlı münasibətlərini kəskinləşdirdi və müharibə vəziyyətinə gətirdi. Uzun Həsən 1472-73-cü illərdə Osmanlılara qarşı hərbi əməliyyatlara başladı. Malatya döyüşündə qələbə qazansa da Otluqbeli döyüşündə məğlub oldu. 6 yanvar 1478-ci ildə Uzun Həsənin ölümündən sonra Ağqoyunlu dövləti zəiflədi və 1501-ci ildə Şərur döyüşündə İsmayıl Səfəvi Sultan Əlvəndi məğlub edərək Ağqoyunlu dövlətinə son qoydu.

# NAXÇIVAN SƏFƏVİLƏR DÖVRÜNDƏ
## (1501—1736-cı illər)




